# Gələn ilin dövlət büdcəsi də əvvəlki illərdə olduğu kimi, sosialyönümlüdür

***Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 29 noyabr 2019-cu il tarixdə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Qanun qəbul olunub. Həmin qanunla gələn il üçün dövlət büdcəsinin gəlirləri 24 milyard 134 milyon 500 min manat, xərcləri isə 26 milyard 894 milyon 700 min manat məbləğində təsdiqlənib.***



Ölkə rəhbəri bundan başqa, həmin tarixdə "Məşğulluq haqqında" və "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında" sənədlərdə dəyişiklik edilməsi barədə müvafiq qanunları da imzalayıb.

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il üçün yaşayış minimumu və ehtiyac meyarının həddi haqqında qanunları da təsdiq edib. Gələn il üçün yaşayış minimumu ölkə üzrə 190 manat, əmək qabiliyyətli əhali üçün 201 manat, pensiyaçılar üçün 157 manat, uşaqlar üçün 170 manat məbləğində müəyyən olunub.

Ünvanlı dövlət sosial yardımının təyin olunması məqsədilə 2020-ci il üçün ehtiyac meyarının həddi isə 160 manat məbləğində təsdiq edilib.

Sosial təminatın daha da yaxşılaşdırılmasını ifadə edən büdcə göstəricilərinin ildən-ilə yaxşılaşdırılması, ölkəmizdə mütərəqqi sosial siyasət həyata keçirilməsi, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə mühüm önəm verilməsi təsadüfi deyil. Çünki insanlara maddi-mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs çərçivəsində sosial məsələlərin həlli, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi hər zaman diqqət mərkəzindədir. Eyni zamanda, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması, yeni sosial obyektlərin tikintisi dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindəndir.

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Qanundan da aydın görünür ki, gələn ilin dövlət büdcəsi əvvəlki illərdə olduğu kimi, sosialyönümlüdür. Başqa sözlə, dövlət büdcəsinin sosialyönümlüyünün davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi prioritet istiqamət olaraq saxlanılıb.

Ekspertlərin fikrincə, gələn il və növbəti 3 ildə neft sektorunun artım tempinin daha da artacağı müqabilində ÜDM-in real artım tempinin daha da sürətlənəcəyi, bununla yanaşı, qeyri-neft sahələrinin öz üstün mövqeyini qoruyub saxlayacağı əsasında dövlət büdcəsinin həm gəlir, həm də xərc göstəriciləri artımla proqnozlaşdırılıb. Ümumiyyətlə, 2020-ci ilin dövlət büdcəsinin parametrləri müstəqillik illərində manat ifadəsində ən böyük göstərici olmaqla nəzərdə tutulub.

Ekspertlər onu da bildirirlər ki, son vaxtlar müşahidə olunan vergi ödəyiciləri üzərində inzibati təzyiqlərin yumşaldılması və vergi inzibatçılığının əsasən intizamsız vergi ödəyiciləri üzərində gücləndirilməsi prosesi könüllü bəyanetmənin səviyyəsini artırmaqla qeyri-neft sektorunun potensialından daha səmərəli istifadə olunmasını təmin edir. Bu meyillər bilavasitə dövlət büdcəsi gəlirlərinin bir sıra əhəmiyyətli parametrlərinin müsbət inkişafını şərtləndirməklə, qarşıdakı il üçün dövlət büdcəsi gəlirlərinin proqnoz göstəricilərinin də artım prioritetlərini müəyyənləşdirib.

Sosial-iqtisadi islahatlar, inkişafın bütün parametrləri üzrə qarşıya qoyulan vəzifələr, hökumətin vətəndaşlar qarşısındakı öhdəlikləri sahəsindəki hədəflərə çatmaq üçün gəlinən ümumi qənaət ondan ibarətdir ki, 2020-ci ilin büdcə paketinə daxil olan sənədlər bütün bu proseslərin həyata keçirilməsini təmin edəcək. Ümumiyyətlə, gələn ilin inkişaf parametrlərinə tam uyğun şəkildə hazırlanan dövlət büdcəsi Azərbaycanın iqtisadi yüksəlişində, əhalinin sosial rifahının daha da gücləndirilməsində, ölkəmizin müdafiə qabiliyyətinin və ordumuzun döyüş imkanlarının daha da artırılmasında önəmli rol oynayacaq.

Mütəxəssislər bildirirlər ki, hazırda Azərbaycan əhalisinin 4,2 milyon nəfəri təxminən 3 milyard manat civarında sosial müdafiə ilə əhatə olunub, vətəndaşların böyük bir qrupuna şamil edilən ödənişlər 2 dəfəyə qədər yüksəlib. Azərbaycanın müstəqilliyi tarixində ilk dəfə olaraq gələnilki dövlət büdcəsinin yuxarıda vurğuladığımız kimi, gəlirləri 24 milyard 134 milyon 500 min manat, xərcləri isə 26 milyard 894 milyon 700 min manat məbləğində təsdiqlənib. Bu maliyyə toplumunun böyük bir hissəsi -- təxminən 40 faizi bilavasitə sosial məqsədlərə yönəldiləcək. Ünvanlı dövlət sosial yardımları üçün 2019-cu ilə nəzərdə tutulan vəsaitlərin həcmi isə gələn il 30 faiz artırılacaq və əlavə 13 min ailənin müavinət almaq imkanları artacaq. Belə ailələrin sayı 90 mini ötəcək.

Gələn il üçün bu məqsədlə büdcədə nəzərdə tutulan vəsait əvvəlki illə müqayisədə 697,41 milyon manat və ya 17 faiz çoxdur. Bu büdcənin artan böyük məbləği məhz DSMF-nin öz imkanları hesabına toplanacaq. Daha bir sevindirici hal isə odur ki, Prezidentin apardığı struktur islahatları nəticəsində qeyri-leqal məşğulluğun 160 min nəfərinin sığortaya cəlb olunmasıdır. Bu büdcənin artımında özünü göstərib. Rəqəmlər bir daha onu deməyə imkan verir ki, gələn il pensiyaların və əməkhaqlarının artım tempi davamlı surətdə çoxalacaq.

Buradan da aydın görünür ki, ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi hər zaman Prezident İlham Əliyevin apardığı siyasətin başlıca prioritetlərindən olub. Dövlət başçısının birbaşa rəhbərliyi ilə pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi və məşğulluq sahələrində şəffaflığın, habelə sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi ilə bağlı mühüm addımlar atılıb.

Gömrük və vergi sisteminin şəffaflaşması, idxal-ixrac əməliyyatları üzrə statistik uçotun düzgün qurulması və xarici ticarət fəaliyyəti ilə məşğul olan şəxslərlə məmur təmasının minimuma endirilməsi, gömrük və vergi xidməti mədəniyyətinin yüksəldilməsi ilə bağlı müvafiq dövlət qurumları qarşısında konkret vəzifələr qoyulub. Həmin vəzifələrin həyata keçirilməsi istiqamətində atılan addımlar əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına, bürokratik əngəllərin aradan qaldırılmasına xidmət edir.

Ölkə Prezidentinin bilavasitə göstərişləri ilə həyata keçirilən islahatların nəticələri iqtisadiyyatın bütün sahələrində nəzərə çarpır. Respublikanın kadr potensialından düzgün istifadə, onların yerləşdirilməsi, həmin sahələrdə nəzarətin gücləndirilməsi əsaslı müsbət dəyişikliklərə səbəb olub. Bu gün inamla demək olar ki, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Vergilər, Kənd Təsərrüfatı nazirliklərinin, Gömrük Komitəsinin vasitəsilə həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının inkişafına geniş imkanlar açıb. Məhz həmin sahələrin uğurlu fəaliyyəti nəticəsində ölkəmizin maliyyə imkanları daha da genişlənib, vətəndaşlarımızın rifah halının yaxşılaşdırılmasına yönəlmiş qərarların qəbul edilməsinə şərait yaranıb. Yeni komplekslərin, müəssisələrin, infrastruktur obyektlərinin yaradılması iş yerlərinin açılmasına, büdcəyə vergi, gömrük daxilolmalarının əhəmiyyətli dərəcədə artmasına, bir sözlə, uğurlu nəticələrə gətirib çıxarıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə, sosial xidmətlərin vahid platforma və "bir pəncərə"dən şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi məqsədilə, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və DOST Mərkəzinin yaradılması da vətəndaşlarımızın sosial təminatının gücləndirilməsinə xidmət edir.

Azərbaycanda sosial siyasətin fasiləsiz və davamlı şəkildə həyata keçirilməsi Prezidentlə cəmiyyətimiz arasında inam və etimad mühitini formalaşdıran ən təsirli amildir. Hakimiyyətlə xalq arasında anlaşma və etimad məsələsində Azərbaycanın, hətta inkişaf etmiş ölkələrin reytinqlərində ən yüksək pillələri tutması məhz sosial siyasətin dəqiqliyi və əhatəliliyi hesabına əldə olunan nəticədir. Dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə Azərbaycanla müqayisə oluna bilsin. Əməkhaqqı, pensiya və təqaüdlərin istehlak tələbinə uyğun artırılması və indeksləşdirilməsi, mütəmadi olaraq əhalinin real gəlirlərinin bazar səviyyəsinə uyğunlaşdırılması, aztəminatlı insanların, tələbələrin, əlillərin, şəhid ailələri və veteranların sosial müdafiəsinin təşkili, məktəb və xəstəxanaların tikintisi, səhiyyə, təhsil sahələrinin, sosial sığorta qaydalarının, ünvanlı sosial yardım və pensiya sisteminin təkmilləşdirilməsi və s. sahədə atılan addımlar Azərbaycan dövlətinin çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 16 ildə yürütdüyü sosialyönümlü siyasətin məqsədi təkcə sosial bərabərsizliyi aradan götürmək olmayıb, həm də onu tarazlaşdırmaq, vətəndaşların maddi vəziyyətindəki fərqliliyi aradan qaldırmaq, kəskin təbəqələşməyə yol verməmək, cəmiyyətin bütün üzvlərinin layiqli həyat səviyyəsini təmin etməkdən ibarətdir.

Bu və digər faktlar göstərir ki, ölkədə bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətdə möhkəm dayaqlar tapması, iqtisadiyyatın liberallaşdırılması sosial himayəyə ehtiyacı olan vətəndaşların maraqları ilə qətiyyən ziddiyyət təşkil etmir. Əksinə, əldə olunan dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. Keçən ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanması, xüsusən də bu ilin əvvəlindən başlayaraq əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanın "sosial dövlət" konsepsiyasına sadiqliyinin bariz göstəricisidir.

Yürüdülən uğurlu iqtisadi siyasət – çevik və şəffaf vergi-gömrük islahatları nəticəsində son aylarda ölkəmizin maliyyə imkanlarının daha da artması ilə paralel dövlət başçısı uğurlu sosial islahatlar paketinin reallaşdırılmasını təmin edib. Təkcə onu demək lazımdır ki, bu prosesin əyani təzahürü olaraq icbari tibbi sığorta sisteminin tətbiqi gerçəkləşdirilib, bu sistemin 2020-ci ildən bütün ölkədə tətbiqi nəzərdə tutulub. İşsizlikdən Sığorta Fondunun yaradılması, məşğulluq strategiyasının qəbulu, ünvanlı sosial yardımın əhatə dairəsinin genişləndirilməsi və özünüməşğulluq proqramlarının təmin edilməsi də sosial islahatların mühüm tərkib hissəsinə çevrilib.

Sonda qeyd edək ki, gələn ilin dövlət büdcəsinin əsas prioriteti qeyri-neft-sektorundan daxilolmaların artması və bunun da nəticəsində büdcədə neft amilindən asılılığın azaldılmasıdır. Bu gün reallaşdırılan islahatlar və qarşıya qoyulan vəzifələr də onu deməyə əsas verir ki, gələn il vergi daxilolmaları artacaq. Bütün bunlar biznesin, sahibkarlığın inkişafını daha da sürətləndirəcək, yeni iş yerlərinin açılmasına müsbət təsir göstərəcək, son nəticədə isə əhalinin rifahının yaxşılaşmasını şərtləndirəcək.

**"Xalq qəzeti"**